# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası uşaqlar üçün master-klas təşkil edib









**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar "Sən də hüquqlarını tanı" mövzusunda master-klas təşkil olunub.**

AHİK-in Əmək və Sosial Münasibətlər Akademiyasının İxtisasartırma və Kadrların İnkişafı Mərkəzində keçirilən tədbirdə həmkarlar ittifaqı üzvlərinin övladları iştirak ediblər.

Əvvəlcə uşaqlara akademiya haqqında məlumat verilib. Əmək və Sosial Münasibətlər Akademiyasının rektor vəzifəsini icra edən Yusif Ağayev azyaşlıları salamlayaraq onları bu əlamətdar gün münasibətilə təbrik edib.

Tədbirdə uşaq hüquq və azadlıqlarından danışılıb, onların qorunması istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər barədə məlumat verilib.

Vurğulanıb ki, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uşaq hüquqlarının qorunmasına xüsusi əhəmiyyət verilir, onların sağlam, hərtərəfli, Vətənə layiqli övlad kimi böyüməələri, təhsil almaları üçün hər cür şərait yaradılıb. Qeyd edilib ki, xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum uşaqlar daim dövlətimizin diqqətindədir. Həmçinin uşaqlara müstəqil, suveren, qalib Azərbaycanın vətəndaşı olaraq ölkəmizin gələcək inkişafı naminə çalışmaq, bunun üçün yaxşı oxumaq, biliklərə yiyələnmək tövsiyə olunub.

Tədbirdə uşaq hüquqları ilə bağlı təqdimat olub, dövlətimizin uşaqlara göstərdiyi diqqət və qayğıdan bəhs edən videoçarx nümayiş etdirilib. Eləcə də master-klasda iştirakçılara mövzu üzrə tapşırıqlar verilib, qrup işləri yerinə yetirilib.

Sonda iştirakçılara sertifikat və hədiyyələr təqdim olunub.

***N.ƏSGƏROVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 20254.- 3 iyun (№ 114).- S.11.